# "Muzey pedaqogikası"nda psixoloji amillər

Muzeyşünaslığın inkişafında "Muzey pedaqogikası"nın mühüm əhəmiyyəti olduğundan, bu sahədə bir sıra psixoloji amillərin mahiyyəti maraq doğurur:

1.Muzey işçisinin psixoloji xüsusiyyətləri;

2.Muzey-məktəb əlaqələrinin sosial-psixoloji amilləri;

3.Muzey işçisi fəaliyyətində psixoloji priyomların əhəmiyyəti;

4.Müəllim və tərbiyəçinin bədii yaradıcılığa münasibətlərinin psixoloji tərəfləri;

5.Muzey fəaliyyətində meydana çıxan psixoloji maneələrin aradan qaldırılması yolları;

6.Muzey işçisi fəaliyyətinin səmərəliliyinin psixoloji göstəriciləri.

Muzey işçisi mürəkkəb fəaliyyət prosesində iştirak edir. "Adətən fəaliyyətdən danışarkən insanın dərk olunmuş məqsədi ilə tənzim edilən daxili (psixi) və xarici (fiziki) fəallığı nəzərdə tutulur. Fəaliyyətin köməyi ilə insan öz tələbatını ödəməklə yanaşı, bu prosesdə onun formalaşması, inkişafı da baş verir" (Həmzəyev M. Ə. Pedaqoji psixologiya. B. "Maarif, 1991, s.168). Muzey mühiti və mühitdənkənar şəraitdə muzey işçisi fəaliyyət prosesində öz bilik, bacarıq və vərdişlərini daha da artırır, bu zaman təcrübi baxımdan təkmilləşmə baş verir. Bu proses zamanı eyni zamanda muzey işçisinin psixoloji xüsusiyyətləri də təzahür edir və dəyişir.

Nəzərdə saxlamaq lazımdır ki, muzey fəaliyyəti öz xüsusiyyətinə görə fərqli olduğundan, buna müvafiq olaraq muzey işçisi xüsusiyyəti də formalaşır. Muzey işçisi yaradıcı, öyrədici, iştirakedici, tərbiyəedici, təşkilatçılıq, idarəedicilik funksiyalarını özündə cəmləşdirməklə mürəkkəb prosesləri həyata keçirir. Hər bir funksiya müvafiq məqsəd və vəzifələrlə əhatə olunduğundan, bu məqsəd və vəzifələrin həyata keçirilməsi müvafiq psixoloji mühitlə əlaqədardır. Belə mühit isə özünə müvafiq xüsusiyyətləri mövcud imkanına görə muzey işçisində formalaşdırır.

Muzey işçisinin yaradıcı xüsusiyyəti onun öz fəaliyyətindən doğur. Muzey işçisi nə qədər mürəkkəb muzey mühitində fəaliyyət göstərirsə, keyfiyyət baxımından formalaşma prosesi bir o qədər də səmərəli nəticələnir. Beləliklə, mürəkkəb psixoloji yaradıcı mühitdə formalaşma müvafiq şəkil alır.

Muzey işçisi öyrədici xüsusiyyətə malikdir. Yəni, muzey işçisi həm müxtəlif yaş qrupuna mənsub insanların psixikasına uyğun fəaliyyət xətti tutmalı, bir tərəfdən həmin psixikanı başa düşməli, ona uyğun psixoloji fəaliyyətdə olmalıdır. Digər tərəfdən, psixikaların tələbatlarına uyğun öyrədici psixoloji manevrləri aparmalı, müvafiq psixoloji priyomlardan istifadə etməlidir.

Müasir muzey işçisi muzeyə gələnləri, hər hansı əşya və yaxud eksponatla maraqlananları inkişaf etdirmək vəzifəsini həyata keçirir. Bu proses o vaxt müsbət nəticə verər ki, muzey işçisi tamaşaçının idrakı imkanlarının inkişafı və formalaşması yollarını müəyyənləşdirsin. Buna görə də muzey işçisi tamaşaçının ekspozisiyaya, eksponata münasibətini mütəmadi izləməli, tamaşaçı-ekspozisiya, eksponat ünsiyyəti, qarşılıqlı əlaqəsi prosesində yaranan psixoloji gərginliyi aradan qaldırmağı bacarmalıdır. Belə qarşılıqlı əlaqəlilikdən daxili, yaxud zahiri ziddiyətlər yarana bilər, bələdçi bu ziddiyyətləri doğuran səbəbləri aşkar etmək bacarığına malik olmalı, ziddiyyətlərin aradan qalxmasına çalışmalıdır. Yalnız sonuncu prosesin baş verməsi ilə inkişafa nail olmaq olar.

Muzey fəaliyyətinin mərkəzində tərbiyəedicilik durur. Bu funksiyanı həyata keçirən muzey işçisi, birincisi, tamaşaçı üçün tərbiyəedici mühit yaratmalı, yəni ekspozisiyadakı eksponatların tərbiyəedici gücü olmalıdır. İkincisi, muzey işçisi özü tərbiyəedici təsir göstərməyi bacarmalıdır. Daha doğrusu, tərbiyəedicilik xüsusiyyəti muzey işçisinə xas olmalıdır. Sərgi və digər muzey tədbirləri zamanı uşaqlarda, yeniyetmə gənclərdə elmi dünyagörüşünün formalaşması, ideya-siyasi, mənəvi, estetik, beynəlmiləl, vətənpərvərlik tərbiyəsi vəzifələrinin yerinə yetirilməsi ilə bağlıdır. Tərbiyəedici funksiyanın həyata keçirilməsi də muzey işçisindən müvafiq bilik, bacarıq və vərdişlərə yiyələnməsini tələb edir. Məhz muzey işçisi belə bacarıq, bilik və vərdişlərlə muzey tədbirlərində müxtəlif yaş qrupuna mənsub insanları, xüsusən də uşaq və yeniyetmələri müxtəlif istiqamətlər üzrə tərbiyələndirməyi bacarır. Bu zaman maraqlar daha da artır, estetik gücə malik eksponatdan muzey işçisi həm də vətənpərvərlik tərbiyəsi istiqamətində təsir göstərə bilir və s.

Müasir dövrdə hər bir insan təşkilatçılıq və idarəçilik xüsusiyyətinə malik olmalıdır. Tamaşaçı daxil olduğu muzey mühitində bu keyfiyyətlərlə bir neçə dəfə rastlaşırsa, artıq o, buna vərdiş alır və daha da yüksək təşkilatçılıq, idarəçiliklə qarşılaşmağı arzulayır. Buna görə də, muzey işçiləri yüksək təşkilatçılıq qabiliyyətinə, bacarığına yiyələnməli, idarəçilik vərdişlərinə nail olmalıdırlar. Əlbəttə, bu prosesdə bir sıra psixoloji gərginliklər, maneələr dəf edilməlidir ki, bu da yüksək peşəkarlıq nəticəsində əldə edilə bilər. Belə muzey işçiləri ideya möhkəmliyi, siyasi yetkinlik, nəciblik, əqli yetkinlik, əxlaqi saflıq və təmkinliliyə malik olmalıdır.

Məlum olduğu kimi qarşılıqlı anlaşmanın, əlaqəliliyin müəyyən nəticəsi üçün ünsiyyət prosesinin yaranması vacibdir. Ünsiyyətin köməyi ilə bir tərəf digər haqqında ətraflı, hərtərəfli məlumat əldə edə bilir. "Ona görə də psixoloqlar ünsiyyətə insanlar arasında birgə fəaliyyət tələbatlarından doğan təmasın çoxplanlı inkişaf prosesi kimi baxırlar. Ünsiyyət olmadan heç bir insan qrupu birgə fəaliyyəti həyata keçirə bilməz" (yenə orada, səh. 178).

Muzey-məktəb ünsiyyəti prosesində əsasən iki tərəfin-yaradıcı fəaliyyətlə və pedaqoji, şagird fəaliyyəti ilə sıx bağlı tərəflərin əlaqələri baş verir. Bu prosesin özündə mürəkkəblik mövcuddur. Birincisi, muzey fəaliyyətinin öz daxili ziddiyətliliyi və bu ziddiyətliliyin nəticəsi olan yaradıcılıq fəaliyyətin nəticəsi sayılır. İkincisi, məktəbin özündə isə pedaqoji fəaliyyətlə şagird fəaliyyətinin qarşılıqlı əlaqəsi bilik, bacarıq və vərdişlərin birincilər tərəfindən aşılanması, ikincilər tərəfindən mənimsənilməsi prosesi baş verir. Hər iki tərəfin-həm muzeyin, həm də məktəbin fəaliyyəti onların gördükləri iş hesab olunur. Bu iş də öz növbəsində muzeyin əhatə olunduğu ətraf mühit tərəfindən qiymətləndirilir.

Muzeylər özləri də ikinci bir fəaliyyətdə tərbiyələndirmək, mənən zənginləşdirmək, müvafiq bilikləri müxtəlif yaş qrupuna aid insanlara çatdırmaq kimi mürəkkəb bir prosesdə iştirak edirlər. Burada bir tərəfdən, eksponatın, muzey əşyasının bədii-estetik gücü ilə zənginləşdirmə, digər tərəfdən isə elmi-yaradıcı potensialın fəaliyyəti ilə tərbiyələndirmək, təsir göstərməkdir. Lakin hər iki halda müxtəlif tarixi dövrlərə aid insan amili əsas qüvvədir. Beləliklə, həm muzeyin, həm də məktəbin kollektivləri arasındakı ünsiyyət problemin predmeti sayılmalıdır. Burada hər iki tərəfin fəaliyyətinin məzmunu insanların formalaşdırılmasından ibarətdir. Yəni, məqsəd eynidir. Deməli, ayrı-ayrılıqda həyata keçirilən fəaliyyətlər əlaqəli olsalar daha perspektiv inkişafa nail ola bilərlər. Kollektivlərarası ünsiyyət perspektiv inkişaf üçün şərait yarada bilir.

Muzey-məktəb kollektivlərinin ünsiyyəti zamanı ünsiyyətin bir sıra xüsusiyyətləri özünü göstərir. "Sosial-psixoloji ədəbiyyatda ünsiyyətin bir-birilə sıx bağlı olan üç cəhəti qeyd edilir: birincisi, birgə fəaliyyətin iştirakçıları arasında informasiya mübadiləsi və ya kommunikativ cəhət; ikincisi, bir-birilə ünsiyyətdə olan fərdlər arasında qarşılıqlı təsir prosesi; üçüncüsü, ünsiyyət prosesində adamların bir-birini qavraması və bunun əsasında bir-birini anlaması". Tədqiqatçı alim Muxtar Həmzəyevin fikri muzey-məktəb ünsiyyəti problemi üçün də çox dəyərlidir. Yuxarıda qeyd olunan bu cəhətlərin hamısı muzey-məktəb ünsiyyəti prosesinə də aid olmaqla, muzey-məktəb fəaliyyətinin səmərəliliyinin keyfiyyət dərəcəsi üçün şərtə çevrilə bilər.

Muzey-məktəb əlaqələrindən yaranan yuxarıdakı ünsiyyət cəhətlərindən başqa, aşağıdakı ünsiyyət cəhətlərinin qeyd olunması məqsədyönlü olardı:

1.Birinin digər tərəfə təsir göstərməsi;

2.Məktəblilərin bədii-silsilə fənlərini qavramaları istiqamətində təsirin səmərəli nəticə verməsi;

3.Müxtəlif yaş qrupuna malik insanların maraqlarının artırılması;

4.Yeniyetmə gənclərin, məktəblilərin peşə yönümü istiqamətində formalaşması;

5.Üçüncü tərəfin-valideynlərin bu prosesə cəlb edilməsi.

Ünsiyyət prosesində muzey fəaliyyəti vasitəsilə məktəb mühitinə, daha doğrusu, məktəbin kollektivinə yaradıcı təsir göstərilir. Hər bir eksponat, yaxud ekspozisiya, digər kütləvi tədbir vasitəsilə göstərilən təsir yaradıcı mahiyyət kəsb edir və bu təsir həm də bədii silsilə fənlərinin tədrisinin daha da asanlaşmasında özünü biruzə verir.

Məktəbdə tədris olunan bədii silsilə fənlərinin qavranılmasında müxtəlif profilli muzeylərin müvafiq təsir gücünə malik olması özünü göstərir. Lakin hər bir muzey hiss olunacaq dərəcədə problemlə bağlı özünəmüvafiq təsir gücünə malikdir.

Muzey-məktəb kollektivlərinin ünsiyyəti prosesində məktəb müəllimlərinin, həm də şagirdlərin muzeyin bədii təsirindən müxtəlif istiqamətlər üzrə maraqlarının yaranması və getdikcə artması prosesi baş verir. Maraqların son nəticəsi idraki proseslərin müsbət nəticəsi ilə başa çatır.

Ünsiyyət zamanı yeniyetmə gənclərin peşəyönümü istiqamətində formalaşması mühüm prosesdir. Müxtəlif dünyagörüşlərə malik psixikalar, şüurlar müvafiq olaraq özlərinə peşələr seçməkdə fərqlənir, yaradıcılıq meyllərinə daha çox həvəs göstərirlər. Memarlıq, heykəltəraşlıq, rəssamlıq, muzey işçisi, sənətşünas, muzeyşünaslığa daha da həvəs yaranır, getdikcə də artır.

Muzey-məktəb kollektivlərinin ünsiyyəti zamanı hər iki kollektivə üçüncü tərəf-valideynlər də qatıla bilər və təbii ki, bu müsbət nəticələnər. Çünki, valideynlər məktəblilərin mənimsəmələrinə daha da əhatəli kömək göstərməklə, bu prosesin keyfiyyət dərəcəsini artırırlar. Ümumiyyətlə, hər hansı fəaliyyətə cəlb edilən valideyn əməyi həmişə müsbət nəticələnmişdir.

Muzey və məktəbin fəaliyyətinin əsas amili, geniş inkişafetdirici qüvvəsi şəxsiyyətdir. Məhz hər iki kollektivin fəaliyyəti və bu fəaliyyətin məqsədyönlü inkişafa xidmətini nizamlamaq, eyni zamanda əlbir fəaliyyətin əlbir tətbiqində şəxsiyyətlərarası qarşılıqlı münasibətlərin mühüm əhəmiyyəti bütün fəaliyyət boyu özünü göstərir. Bu cür qarşılıqlı münasibətlər zəminində şəxsiyyətlərarası normalar, etik davranış münasibətləri formalaşır.

Münasibətlərin məqsədyönlü şəkil alması hər iki tərəfin nümayəndələrindən-şəxsiyyətlərdən bilik, bacarıq və vərdişlərin maksimum sərf edilməsini tələb edir. Beləliklə, hər iki tərəf arasında işgüzarlıq prosesi yaranır.

İşgüzarlıq-insanın hərtərəfli inkişafında, formalaşmasında mühüm amil, onun ətraf mühitə, əşya və hadisələrə fəal münasibəti, müəyyən məqsədə nail olmaq üçün mütəşək-

killiyidir. İşgüzarlıq şəxsiyyətin cəmiyyət və Vətən qarşısındakı vəzifə borcunu, şəxsi tələbatını, maraq və arzusunu, niyyət və hissini məqsədyönlü şəkildə yerinə yetirmək məqsədi güdür. İşgüzarlıq insan keyfiyyətlərinin mahiyyət və xarakterindən asılı olaraq, müəyyən məqsədə nail olmasında şəxsiyyətə imkan və şərait yaradır, hər an qarşıya çıxan çətinlik və maneələri aradan qaldırmağa kömək edir, həmişə konkret xarakter daşıyır və müəyyən müsbət nəticəyə gətirir, beyinin fəaliyyətini, insanın fiziki və zehni əməyə marağını artırır. Qarşılıqlı fəaliyyət prosesində məhz insan idrakı vasitəsilə ən çətin psixoloji məqamların həllində yollar və vasitələrə nail olmaq mümkündür. İdrakı fəaliyyət məqsədyönlü şəkildə istiqamətlənərsə, işgüzarlığın səmərə və keyfiyyəti yüksəlir. Nəzərdə saxlamaq lazımdır ki, qarşılıqlı işgüzarlıqda həm elmi idrakın, həm də yaradıcı idrakın inkişafı müsbət nəticələrə gətirib çıxarır.

İşgüzarlıq prosesində insanlar ideoloji, siyasi, mədəni, hətta bəzi hallarda iqtisadi, inzibati fəaliyyətlərlə çulğaşır, təsir göstərirlər. Beləliklə, "kompleks" münasibət sistemi yaranır.

Həm muzey, həm də məktəb kollektivləri arasında yaranan qarşılıqlı işgüzarlıq prosesində müxtəlif kateqoriyaların hər birində şəxsiyyət münasibətlərinin müəyyən tərəfləri, mahiyyəti, məzmunu özünü biruzə verir. Stimullaşdırma, müraciət və informasiya vasitələri, idrak, təfəkkür, ixtisaslaşma, davranış mədəniyyəti və s. kimi kateqoriyaların insanların şüurla, məqsədli mədəni fəaliyyətlərinin reallaşması üçün vasitədir. Şəxsiyyətin fəal mövqeyi, yaradıcılığı, əlaqəlilik mədəniyyəti, geniş bacarıq erudisiyası məhz bu vasitələrlə ifadə olunur.

Muzey-məktəb əlaqəliliyi prosesində şəxsiyyət amili ilə bərabər mühit də mühüm əhəmiyyət kəsb edir. Mühitin əvvəl mövcudluğu, müvafiq şəraitin olması insanın sonrakı fəaliyyəti üçün, gələcək inkişafı üçün münasibətlər yaratmasına səbəb olur. Deməli, münasibətlərin mövcudluğu da mühüm əhəmiyyətə malikdir. Beləliklə, əsasən üç-mühit, insan və münasibət kimi amil və fəaliyyətin qarşılıqlı əlaqələrdə əhəmiyyətli olması məlum olur.

Əlaqəlilikdə davranışların getgedə təkmil xarakter alması da təbiidir. Çünki, insan mövcud olduğundan, bu inkişafa təkan verən insan amilinin də getdikcə hərtərəfli formalaşması, yetkinləşməsi mövcuddur. Şəxsiyyət inkişaf etdikcə, mühitdə dəyişiklik əmələ gətirir, mühitdə baş verən dəyişiklik də öz növbəsində şəxsiyyəti yetişdirir, formalaşdırır. Formalaşmaya məhz şəxsiyyətlərarası münasibətlərdə yüksək davranış normalarına əməl olunması tələb olunur. Yüksək davranış mədəniyyəti təbii ki, yüksək nəticələrin əldə olunması üçün zəminə çevrilir.

Fəaliyyət prosesində muzey işçisinin peşəkarlığı göstərmə dərəcəsinin əhəmiyyəti böyükdür. Bu prosesdə təbii ki, gənc muzey işçilərinin, yəni yenicə peşəyə yiyələnənlərin qarşısına çıxan psixoloji maneələrə müvafiq ölçülər götürmələri də diqqətdən yayınmamalıdır. Gənc muzey işçiləri fəaliyyət prosesində bir çox çətinliklərlə üzləşə bilərlər:

1. Müxtəlif yaş qrupuna məxsus tamaşaçılarla yaradıcı ünsiyyət yarada bilməmək.

2. Muzeyə gələn müxtəlif peşə sahibləri-müxtəlif dünyagörüşlü, bilik, bacarıqlı tamaşaçılarla müvafiq əlaqə yaratmaqda çətinliyin yaranması.

3. Müxtəlif yaş qrupuna mənsub tamaşaçıların daxili psixoloji mövqelərini başa düşməmək.

4. Tamaşaçıları mənən zənginləşdirə bilməmək.

5. Ekspozisiya və yaxud muzeydaxili tədbirdə idarəçiliyin və təşkilatçılığın mürəkkəbliyini başa düşməmək, belə psixoloji vəziyyəti qiymətləndirə bilməmək.

6.Muzey işçisi-tamaşaçı ünsiyyəti zamanı məqsəddən asılı olaraq onu istiqamətləndirməyi bacarmamaq.

7.Mühiti müşahidə etməyi bacarmamaq və s.

Gənc muzey işçiləri belə vəziyyətlər nəticəsində əsəbiləşir, fəaliyyətdə nizamsızlığa yol verir, tez-tez fəaliyyətində səhvlər buraxır və s. Belə çətinliklər müxtəlif amillərlə bağlı ola bilər və bu cür amilləri "psixoloji maneələr" adlandırırlar. Məhz belə "psixoloji maneələri" aradan qaldırmaq üçün muzey işçisi müvafiq priyomlar seçməyi bacarmalı və onlardan lazım gəldikcə istifadə etməlidir:

-muzey işçisi hər şeydən əvvəl fərdə-tamaşaçıya, yaxud qrupa qarşı həddindən artıq yaradıcı münasibət bəsləməli, ümumiyyətlə diqqətli olmağı bacarmalıdır;

-muzey işçisi güclü hafizəyə malik olmalı, yada salma, yadda saxlama, tanıma proseslərini lazım gəldikcə həyata keçirməyi bacarmalıdır;

-işin səmərəli nəticə verməsi üçün muzey işçisi mühitə nəzarət etməli, tamaşaçı fəaliyyətini mütəmadi izləməli, tamaşaçı davranışını (hisslərin dəyişməsini, sifət cizgilərəni, mimikalarını, təəccüblərini və s.) özü-özlüyündə daxilən təhlil etməyi bacarmalıdır;

-nəhayət, muzey işçisi ozünəməxsus manera, bacarıq, biliklərdən istifadə etmək bacarığı əldə etməli, vərdişlərini işə salmalıdır.

Müəllim şəxsiyyəti müəllim əməyinin əsas mənbəyi sayıldığından, cəmiyyətin onun qarşısında qoyduğu vəzifələri həyata keçirməlidir. Bədii silsilə fənləri müəllimlərinin məsuliyyəti isə daha çoxdur. Çünki, bədii silsilə fənlərinin tədrisi prosesində müəllim həm fənni şagirdə çatdırmağı bacarmalı, həm də bədiyyata böyük maraq yaratmağı həyata keçirə bilməlidir. Beləliklə, bədii silsilə fənləri müəllimləri bir sıra vacib keyfiyyətlərə də malik olmalıdır:

1.Həmin fənni dərindən bilməklə yanaşı, bədiyyatın ayrı-ayrı sahələrinə maraq oyatmalıdır.

2.Dərin maraqlar yaratmaq üçün həmin sahəni həm elmi-nəzəri, həm də elmi-təcrübi istiqamətdə dərindən bilməli, bir sıra tədbirlərdə yaradıcı kimi iştirak etməli, həmin sənət sahəsinə uyğun və yaxud təcrübi fəaliyyətdə olmalıdır (məsələn, musiqi, rəssamlıq, heykəltəraşlıq, natiqlik məharəti və s.)

3.İncəsənət yaradıcılığının müxtəlif sahələri üzrə müqayisələr aparmağı bacarmalıdır və s.



Eyni zamanda sinif rəhbərləri və tərbiyəçilərin müvafiq keyfiyyətləri ilə bərabər, onlarda fərdi psixi xassələr də olmalıdır.

Bədii silsilə fənlərinin müəllimləri, tərbiyəçilər və sinif rəhbərləri eyni zamanda özlərinin yaradıcılıqlarını artırmaq və inkişaf etdirməkdə maraqlı olmalıdırlar.

"Müəllim şəxsiyyəti eyni zamanda özünün yaradıcılıq mövqeyi səviyyəsi, onu həyata keçirmək üçün yeni məqsəd və yollar axtarmaq cəhdi ilə xarakterizə olunur. Müəllimin yaradıcılığı pedaqoji fəaliyyətdə yaratdığı yenilikdə, yaradıcı təfəkkürə orijinal tapıntılarında ifadə olunur"(yenə orada, səh. 198). Yuxarıda qeyd olunduğu kimi, müəllimin yaradıcı təfəkkürü həm tədris prosesində, həm də məktəbdənkənar fəaliyyətdə öz işini görməlidir. Bu zaman müəllim özünün fərdi üslub səmərəliliyindən maksimum istifadə edir. Ümumiyyətlə, müəllimin pedaqoji bacarıq və qabiliyyətləri fəaliyyətin müvəffəqiyyətini təmin edir. "Professor A.İ.Şerbakov müəllimin yiyələnməli olduğu ümumpedaqoji bacarıq və vərdişləri dörd qrupa bölür:

1.Məlumatverici bacarıq və vərdişlər;

2.Səfərbəredici bacarıq və vərdişlər;

3.İnkişafetdirici bacarıq və vərdişlər;

4.İstiqamətləndirici bacarıq və vərdişlər"(yenə orada səh. 204-205).

Yuxarıdakı bacarıq və vərdişlərin fərdiyə məxsus gücü nəzərə alınmalıdır. Məlumatvericilik təlim, tərbiyə və təhsilin bütün sahələrini əhatə etməklə, hər bir müəllimin özünə müvafiqdir. Səfərbəredicilik şagirdin ətraf mühitə diqqətliliyi, nəzəri biliyin təcrübəyə tətbiqinin aşılanması prosesi, kollektiv münasibətlərin formalaşmasına yönəldilməklə hər müəllimə xas olmalıdır.

İnkişafetdiricilik tədqiqat metodlarından istifadə və tətbiq prosesi, təlimdə şagirdlərin təfəkkürlərinin müstəqilliyini əhatə edir, müqayisə, fəal idrak fəaliyyəti tələb edir.

İstiqamətləndiricilik şagirdin hərtərəfli formalaşdırılması prosesində vacib sayılır.

Bütün bu vacib vərdişlər müasir bədii silsilə fənn müəllimlərində, sinif rəhbəri və tərbiyəçilərdə də istifadə mexanizmi kimi öz təsirini göstərməlidir.

Muzeydaxili və muzeydən kənar fəaliyyət prosesində muzey bələdçiləri və muzeyə tənəzzöh təşkil edən müəllimlər maneələrlə üzləşir və hər bir müəllim, bələdçi öz fərdi bacarıq, qabiliyyət və vərdişlərindən də istifadə edirlər.

Muzey fəaliyyəti prosesində yaranan psixoloji çətinliklər nədən ibarətdir? Belə maneələr nədən yarana bilər:

1. Muzey daxilində lazımi şəraitin olmamasından;

2. Muzey mütəxəssislərinin səriştəsizliyi ucbatından öz peşələrini dərindən bilməmələrindən;

3. Muzey daxilində və muzeydənkənar fəaliyyət prosesində təşkilatçılığın və idarəedilmənin aşağı səviyyədə olmasından;

4. Plansızlıq və mütəşəkkilliyin zəifliyindən;

5. Muzey işçilərinin qarşılıqlı əlaqəliliyə riayət etmədiklərinə görə;

6. Texniki vəsaitin çatışmaması və yaxud heç olmamasından;

7. Muzey-məktəb əlaqələrinin zəifliyindən və s.

Ümumiyyətlə, psixoloji maneələri aşağıdakı kimi qruplaşdırmaq olar:

1.Muzeydaxili və yaxud muzeydənkənar mühitdə baş verən psixoloji maneələr (mühitlə bağlı çətinliklər);

2.İnsan amilinin (muzey mütəxəssisi, yaradıcı şəxsiyyət, müəllim, tərbiyəçi və s.) səriştəsizliyi (şəxsiyyətlə bağlı psixoloji çətinlik) baxımından yaranan maneələr;

3.Münasibətlərdən yaranan psixoloji maneələr (qarşılıqlı əlaqəlilik və münasibətlərlə bağlı psixoloji maneələr);

4.Texniki vəsait, reklam və informasiya ilə bağlı psixoloji maneələr və s.

Hər hansı şəraitdə psixoloji maneəni doğuran səbəbin obyektivlik dərəcəsindən asılı olaraq obyektiv və subyektiv maneə, dərk olunma dərəcəsinə görə-dərk olunan və dərk olunmayan maneə, muzeydaxili və muzeydənkənar mühitə görə maneələr-daxili və zahiri maneələr, münasibətlər prosesində yaranan psixoloji maneə-əlaqəliliklə bağlı maneə, texniki vəsait, informasiya, reklamla bağlı maneə-vasitə ilə bağlı psixoloji maneələr qismində özünü göstərir.

Obyektiv maneələr sırasında ümumi çətinliklərdən doğan psixoloji maneələri göstərmək olar. Məsələn, 80-ci illərin sonu, 90-cı illərin əvvəlində Azərbaycanda qeyri-sabitliyin baş verməsi nəticəsində muzeylərlə təhsil müəssisələri arasında həyata keçirilən qarşılıqlı əlaqəlilik pozulduğuna görə baş verən bir çox psixoloji maneələr mövcud olur. Bu, hər bir muzey işçisinin, hər bir müəllimin şagirdə, muzey mühitinə, ekspozisiyaya, eksponata, muzey əşyasına, digər kütləvi tədbirlərə, yaradıcılığa, tərbiyəvi proseslərə, məktəblilərin muzey mühitinə olan münasibətlərinə laqeyd münasibətlərindən yaranan psixoloji maneələrdir.

Psixoloji maneələr tez dərk olunduqda, nəzərə çarpdıqda, əvvəlcədən hiss olunduqda, baş verməsi fərz olunduqda gözlənilirsə, muzey işçisi və yaxud müəllim muzey tədbirləri zamanı həmin psixoloji maneəni aradan qaldırmağa nail olur və gələcəkdə belə çətinliklərin baş verməməsi istiqamətində işlər görülməsini planlaşdırır. Onu da qeyd etməliyəm ki, elə bir psixoloji məqam yoxdur ki, onu təcrübəli muzey işçisi və yaxud təcrübəli müəllim qabaqcadan hiss etməsin, dərk etməsin. Bundan ötrü, həssas və diqqətli olmaq, çevik və uzaqgörənliyə, müvafiq bilik, bacarıq və vərdişə, böyük təcrübəyə malik olmaq vacibdir.

Muzeydaxili və muzeydənkənar tədbirlərə uyğun olaraq yaranan daxili və zahiri maneələr obyektiv, subyektiv, dərk olunan və dərk olunmayan olmaqla, asılılıq prinsipi ilə bağlıdır. Daxili çətinliklər daxili mühitin, şəraitin, vəziyyətin törətdiyi ayrı-ayrı hadisələr zəminində baş verir. Zahiri mühitdən asılılıq ətraf mühit tərəfindən yaranan maneələr-

lə bağlıdır. Bu maneələri aradan qaldırmaq yolları və vasitələri, mexanizmləri qabaqcadan düşünməli, gözlənilməsi mümkün olan hər hansı psixoloji maneənin qarşısı alınmalıdır. Yalnız sonuncu proses zamanı inkişaf komponentindən danışmaq olar.

Muzey fəaliyyətində "texniki mühitin" əhəmiyyəti mühümdür. Texniki vəsaitlər ucbatından baş verən psixoloji çətinliklərin müvafiq olaraq planlı şəkildə aradan qaldırılması üçün texniki sahədə bilik və bacarıqların tətbiqi də mühümdür.

Beləliklə, muzeydaxili və muzeydənkənar fəaliyyət prosesində ortaya çıxan psixoloji maneələr xarakterinə görə tədqiq edilərək müvafiq tədbir görülməli, müxtəlif metod, vasitə və yollarla aradan qaldırılmalıdır.

Muzey fəaliyyəti mürəkkəb proses olduğundan, muzey işçisindən də belə mürəkkəbliyi dərindən dərk etmək, peşəkarcasına təşkilatçılıq və idarəçilik vərdişlərinə malik olması tələb olunur. Muzey işçisində keyfiyyətlər cəmlənməli, bu keyfiyyətləri ilə o, hamıya nümunə olmalı, hamıda bədii yaradıcılığa böyük maraq oyatmalıdır. Muzey işçisinin ideya-mənəvi cəhətdən hazırlığı, əxlaqi saflığı, mənəvi təmizliyi, elmi dünyagörüşü, əqidəliliyi, xalqımızın mütərəqqi ənənələrinə sədaqətlilik, vətənpərvərlik, humanizm, vətəndaşlıq borcunun dərki və digər keyfiyyətlər çox vacibdir. Bu keyfiyyətlər muzey fəaliyyətinin bütün mərhələləri üçün xarakterikdir.

"Muzey işçisi fəaliyyətində elmi dünyagörüşünün əhəmiyyəti vacibdir. Formalaşmış muzey işçisi gündəlik hadisələrin mahiyyətini təcili əxz etməli, onu qavramalı, özününküləşdirməli və yenidən tətbiq etməlidir. Əhatə olunduğu muzey mühiti çərçivəsində muzey işçisi ekspozisiya və digər kütləvi tədbirlərə istinad etmək bacarığına malik olmalıdır. Ekspozisiyada elmiliyi qabaqcadan prinsiplik əsasında izah etməyi bacarmalı, hər bir eksponatın elmi-tarixi təsir dərəcəsini müəyyən etməlidir. Eksponatla "danışmağı" bacarmalı, aid olduğu tarixi dövrü öyrənməlidir. Həmin tarixi hadisələrin bugünkü təsir gücünü tamaşaçıya, dinləyiciyə hərtərəfli izah etməyi bacarmalıdır" ("Muzeyşünaslıq, B. 2002, səh. 241).

Müxtəlif tarixi dövrlərin nümunələri olan ayrı-ayrı yaradıcılıq materialları inandırıcı faktlarla aydınlaşdırılmalı, müxtəlif yaş qrupuna uyğun tamaşaçılarda istiqamətlər üzrə dərin maraqlar yaratmalıdır. Elmi dünyagörüşünün səviyyəsi yüksək olmalı, belə fəaliyyətin zəminində məktəblilər yüksək ruhla, maraqla ictimai-faydalı əməyə cəlb edilməli, ətraf mühitə yaradıcı münasibətdə olmalıdırlar. Muzey işçisi tərəfindən elmi dünyagörüşü zəminində qarşılıqlı yoldaşlıq yardımı, humanizm ruhu, insanların gələcəyə inamının konkret və həyati faktlarla, muzey əşyaları vasitəsilə izah edilməsi, onların şüur və hisslərinə dərin təsir göstərir.

Muzey işçisi eyni zamanda tədqiqatçı olmalıdır. Elmi tədqiqat işinin əhatəli aparılması üçün muzey işçisi elmlərin qarşılıqlı əlaqədə inkişafına nüfuz etməyi bacarmalıdır.

Muzey işçilərinin işi əsasən müxtəlif yaş qrupuna mənsub insanlarla, eləcə də uşaqlar və yeniyetmə gənclərlə həyata keçirilir. Ona görə də, uşaq və yeniyetmələrlə muzeyin həyata keçirdiyi bütün tədbirlər planlı və məqsədyönlü olmalıdır. Bacarıq və vərdişlərin, qabiliyyətlərin müvafiq "auditoriyada" tətbiqi də müzey işçisi tərəfindən seçilməlidir. Muzey işçisi əməyi özünün məqsəd və vəzifələrinə görə digər peşə sahiblərinin əməyindən fərqlənir. Muzey işində demək olar ki, mürəkkəb komplekslilik cəmləşdiyinə görə, dərin psixoloji hazırlıq hər bir muzey işçisinə xas olmalıdır. Muzey işçisinin əməyinin psixoloji vasitə və yollarına gəldikdə, nəzərə almaq lazımdır ki, bir dünyagörüşə digər dünyagörüşü vasitəsilə təsir göstərmək mümkündür. Hər bir muzey işçisinin özünə müvafiq təsir üsulu olduğundan, fərqli təsirlilik prosesində fəaliyyətdə vahidlik prinsipinə riayət edilməlidir.

Muzey işçisi əməyinin nəticəsi isə fərdiliyə uyğun olaraq özünəməxsusluğu ilə fərqlənir. Muzeyə gələnlərin psixi simalarında baş verən keyfiyyət dəyişmələri, psixoloji maraq dairələri, müxtəlif elmlərə maraq dairələrinin artmaları, tədqiqatçılığa meyl göstərmələri, müzakirələrə can atmaları və s. bu kimi nəticələrin əldə edilməsi məhz muzey işçisinin əməyinin nəticəsi kimi qiymətləndirilə bilər.

Muzey işçisinin fəaliyyəti prosesində bir sıra anlayışlardan istifadə olunur. Muzey işçisinin ünsiyyəti, məqsədi, vəzifələri, situasiyalar, psixoloji çətinliklər, maneələr, fəaliyyətin priyomları, muzey işçisi şəxsiyyəti və s. anlayışların mahiyyətindən artıq yuxarıda istifadə olunmuşdur.

Muzey işçisi əməyinin səmərəliliyinin psixoloji göstəriciləri aşağıdakılardan ibarətdir:

1.Muzey işçisinin öz məqsəd və vəzifələrini mütəmadi olaraq psixoloji cəhətdən müəyyənləşdirməsi;

2.Muzey işçisi muzeydaxili elmi-yaradıcı potensial və muzeyə gələn müxtəlif yaş qrupuna və peşəyə malik insanlarla müvafiq psixoloji ünsiyyəti təşkil edə bilməsi;

3.Muzey işçisinin fəaliyyət prosesində psixoloji məqamlar nəzərə alınmaqla muzey işinin müxtəlif metod, vasitə, forma və yollarından istifadə edə bilmək bacarığına malik olması;

4.Muzey işçisinin tətbiq prosesini psixoloji baxımdan yüksək icra etmək bacarığının olması

5.Muzey işçisinin öz psixoloji fəaliyyətini təhlil etmək, qiymətləndirmək, öz-özünə qiymət vermək, nəticəni analiz etmək bacarığına malik olması.

Məhz yuxarıdakı göstəricilərin səmərəliliyi sonrakı nəticələrlə ölçüldüyündən, bu nəticələr də tədqiq edilməli, muzeyşünaslıqda geniş müzakirə obyektinə çevrilməlidir.

**Sabir Əmirxanov,**
**pedaqoji elmlər namizədi**